# XÜSUSİ TƏYİNATLI, MUROV FATEHİ, ŞƏHİD SALEH MƏCİDZADƏ

"Dünyanı bürüyən müharibələr-bəşəriyyətin ən böyük bədbəxtçiliyidir. Minlərlə insanların qırılmasına və məhv edilməsinə kimlər əmr verir - əlbəttə ki, çirkin işlərə qulluq edən siyasətçilər. Ağrılı odur ki, nəyə görə müharibəni elan edənlər arxada kef çəkirlər, hələ həyatları qabaqda olan gənc oğlanlar və qızlar, uşaqlar isə mərmilər altında məhv olurlar. Lakin ümid edirəm ki, nə vaxtsa insanlar, qan tökməməyi, münaqişələri sülh yolu ilə həll etməyi öyrənəcəklər. Axı səadət və xoşbəxtlik hansısa bir qisim insanlar üçün nəzərdə tutulmamışdır. Hər bir insanın, xalqın və millətin yaşamaq və yaratmaq hüququ vardır. Hər bir insan dünyada xoşbəxt olmaq, firavan yaşamaq, yazıb-yaratmaq üçün gəlir dünyaya".

İnsan ömrü boyu arzularla yaşayır. Arzudan arzu doğur. Həyata keçən hər arzu, yeni arzunu yaradır. Həyat da bu arzularla davam edir. Lakin dünya güclülərinin müdafiə etdiyi həyasız erməni faşistləri, xalqımızın dinc məqsədli arzularını həyata keçirməyə imkan vermədilər. Otuz il müddətində doğma Qarabağ və onun ətraf ərazilərimizi işğal etdilər...

"... Amma bir nisgil, xalqın bir arzusu vardı ki, millətə nigarançılıqdan, narahatçılıqdan tam yaxa qurtarmağa imkan vermirdi. Bu xalqın Qarabağ arzusu, Qarabağ nigarançılığı idi. Doğma vətənimizin bu gözəl məskənin, düşmən işğalında olması, ürəyimizin yağını əridir, gözlərimizdəki qəmin azalmasına son qoymaq, orada keçirdikləri gözəl günlərə qovuşmaq idi"

Amma bu yolda həddən artıq çətinliklərlə üzləşirdik. Çünki dünya ictimaiyyəti reallıqlardan, Azərbaycan həqiqətlərindən çox az xəbərdar idi, daha çox mənfur erməni yalanlarına üstünlük verirdi. Ulu Öndər Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün bütün imkanlardan istifadə edir, bu işə var gücünü sərf edirdi.

Həqiqətin düyünü isə çox və çətin açılırdı. Düyünlər açıldıqca isə Qarabağa addım-addım yaxınlaşdırdıq.

... Prezident İ.Əliyev atasının arzusunu yerinə yetirməyə söz verdi. Bunu da yerinə yetirdi. Azərbaycan xalqının illərlə gözlədiyi nisgillərə son qoydu. Bütün dünyaya "Qarabağ Azərbaycandır!" deyərək onu məharətlə sübuta yetirdi. Qarabağı erməni faşistlərinin çaynağından xilas etdi. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə düşmən üzərində zəfər çaldı, "dəmir yumruğ"u erməni yağılarının başına endirdi, möhtəşəm qələbə çalaraq dünyada qalib sərkərdə kimi tanındı.

İlham Əliyev qazandığı bu qələbə ilə Azərbaycanın son 200 ildə qazandığı ən böyük qalibiyyət kimi tarix səlnaməmizə həkk olundu. Bir göz qırpımında gücü, qüvvəti, qüdrəti, bacarığı ilə Qarabağı Azərbaycana qaytardı. Azərbaycan xalqının arzusu çin oldu".

Ölümləri ilə bu qələbənin qazanılmasında iştirak edən, ölümləri ilə "ölümsüzlük" qazanan, qanları ilə tarix yazan şəhidlərimiz bu qələbə sevincini xalqına, millətinə ərməğan etdilər. Arzuları, xəyalları puç oldu bu nakam cavanların. Bizləri yaşatmaq üçün, özlərini Vətənə fəda etdilər. Erməni dığalarının "ölüm kabusu"na çevrildilər Şəhidlərimiz. Açılan atəşdən yerə sərilən, lakin təzədən qalxıb düşmən üstünə yeriyən igidlərimizin qarşısında dayana bilmədi faşist erməni.

Sayları bir yox, beş yox, minlərlə olan belə igidlərimizdən biri də Biləsuvar rayonunun axarlı-baxarlı kəndi olan Nəsimi kəndində 16 iyul 1994-cü




ildə dünyaya göz açmış Saleh Nəriman oğlu Məcidzadədir. O, 2000-2011-ci illərdə şəhid Rafiq Rzayev adına orta məktəbdə təhsil alıb. Uşaqlıqdan hərbiyə böyük maraq göstərib. Həqiqi hərbi xidmətini 2015-ci ildə Qusar rayonunda kəşfiyyat bölməsində qulluqla başlayıb. Əsl arzusuna 2017-ci ildən Xüsusi Təyinatlı Qüvvələrdə gizir kimi davam etdirməklə çatıb.

Saleh hərbi ilə yanaşı idmana, xüsusiylə də universal idman növünə önəm verib və 2011-ci ildən onunla çox məşğul olmağa başlayıb. Ölkə miqyasında keçirilən, qatıldığı bütün idman yarışlarının qalibi olub. Ordu idman növləri üzrə keçirilən yarışlarda demək olar ki, yüksək nəticələr göstərib.

Salehin valideynləri Lerik rayonunun Orand kəndindəndirlər. Atası Nəriman Gülməmməd oğlu Məcidov, anası Əzizə Kişi qızı ilə ailə qurandan bir il sonra Biləsuvar rayonunun Nəsimi kəndinə köçüb, oranı özlərinə məskən seçiblər. Yeni məskən Məcidovlar ailəsinə düşərli olub-üç oğul övladı dünyaya göz açıb.

Ailənin ilki -Məcidzadə Əhliman da hərbiçi olub. O, Azərbaycan Hərbi Hava qüvvələrinin hava hücumundan mühafizə bölməsində xidmət edib. Əhliman da II Qarabağ savaşının iştirakçısıdır. Ailəlidir, üçü övlad atasıdır.

II Qarabağ savaşı başlayanda, ailənin kiçik övladı Əli Məcidzadə səhhətində hərbi xidmətə yararsız olmasına baxmayaraq hərbi komissarlığa müraciət edir:

- Mənim iki qardaşım müharibədədir, mən də evdə oturmaq istəmirəm! - deyib cəbhəyə getmək istədiyini bildirib.

- Adını qeyd etdik - gözləməyini məsləhət bilirik - dedilər.

Saleh ailənin ortancılıdır. Uşaqlıqdan arzusu hərbiçi olmaq idi. Odur ki, həqiqi hərbi xidmətini başa vurduqdan sonra yenidən arzusunu reallaşdırmaq üçün orduya qayıdır. Xüsusi Təyinatlı Qüvvələr üzrə TTM-də (Təlim Tədris Mərkəzi) kursundan keçərək sertifikat əldə edir və gizir hərbi rütbəsi alır. O, 2016-cı il aprel döyüşlərində və Tovuzda düşmən diversiya qrupunun məhv edilməsində xüsusiylə fərqlənərək, komandanlıq tərəfindən təltif edilir. General Hikmət Mirzəyev keçirdiyi uğurlu əməliyyatlara görə Salehi dəfələrlə mükafatlandırıb, bu da təsadüfi olmayıb. Vətən müharibəsi günlərində daim qaynar nöqtələrdə olan Saleh xeyli düşmən qüvvəsini və ondan çox texnikasını sıradan çıxarıb. Müharibə başlayan kimi Murov dağındakı ən yüksək strateji yüksəkliklərin götürülməsi üçün cəbhənin şimal istiqamətindəki müvəffəqiyyətimizin açarı olan əməliyyatların uğurla həyata keçirilməsində Salehin rəhbərlik etdiyi qrup hamını mat qoyan nəticələr əldə edib. Murovda üstünlüyün qazanılması, Kəlbəcər istiqamətində bir neçə kəndin və strateji nöqtələrin ələ keçirilməsində Saleh və onun qrupunun xüsusi xidmətlərini komandanlıq qeyd edib, lakin Saleh və onun qrupunun yerini sonradan Füzuli istiqamətinə dəyişdirib. Saleh burada dərinliklərə nüfuz etmək üçün xüsusi tapşırığı yerinə yetirərkən, 10 oktyabr 2020-ci ildə Cəbrayıl rayonunun Daş Veysəlli kəndinin azad olunması zamanı qəhrəmanlıqla döyüşərək şəhid olub. Torpaqlarımızın azadlığı uğrunda şəhid olan nakam şəhidimizi 12 oktyabr 2020-ci ildə doğma kəndində dəfn edirlər. Bu vacib əməliyyatın müvəffəqiyyətlə başa çatdırılmasında Salehin böyük rolu olmasını komandanlıq bir daha qeyd edir.

Həmişə öndə vuruşan Saleh, yaralı




əsgərlərin müalicəsi və digər ləvazimatların alınmasından ötəri öz şəxsi vəsaitindən min manatlarla cəbhəyə yardımlar etdirib. Döyüş bölgələrində olan hərbi xəstəxanalar bu işdən xəbərdardırlar.

Uşaqlıqdan hərbiyə çox marağı olan Saleh deyirmiş ki, hərbçi olacağam. Gözəl və səmimi qəlbə sahib olub. Lakin anasının etirazına baxmayaraq hərbçi kimi ağır işi özünə peşə seçib. Anasına həmişə deyərmiş ki:

- Can, ana, sənin məndən başqa da, iki oğlun var. Bizim işimiz haqq işidir, torpaqlarımızı mənfur düşməndən azad etməliyik. Mən Xüsusi təyinatlıyam. Əgər bir gün bəd xəbər eşitsəniz, başınızı dik tutun!

Müharibədən əvvəl getdiyi əməliyyatlardan sağ-salamat qayıtdıqdan sonra zəng edərək "hər şey yaxşıdır" - deyib valideynlərini arxayın edərmiş.

Sağlığında hamı onu gözəl insan, qətiyyətli gizir, məğlubedilməz idmançı, qorxmaz döyüşçü kimi tanıyır və qəlbimizdə elə də yaşayacaqdır.

Poliqlot insan olan Saleh yüksək savadı və dərrakəsi sayəsində rus, türk, ingilis və erməni dillərində sərbəst danışmağı bacarırdı. Həmin dil kurslarından keçməklə dövlət Salehi xüsusi hazırlamışdı. O, 052 sistemində Türkiyə, Rusiya, Pakistan və Gürcüstanda xüsusi kurslarda iştirak etmiş əsl peşəkar idi.

Saleh həm də nişanlı idi, ailə qurmağa hazırlaşırdı. Pandemiya və müharibə olmasaydı yaxınlarının və dostlarının iştirakıyla yaddaşlardan silinməyəcək möhtəşəm toy edəcəkdi. Hər bir gənc kimi onun da öz arzuları var idi. Arzusuz, istəysiz insan yoxdur dünyada. Böyük və kiçikliyindən asılı olmayaraq, insan arzularla yaşayır. Arzu çox zaman həyat amalımız, ömrümüzün mənası olur. Yaş artdıqca arzularımız da dəyişir, genişlənir. Uşaqlıqda böyüyüb müəllim, həkim, şair, yazıçı, hərbçi olmağı arzulayırıq. Arzu istəkdir, bir şeyin olduğunu diləməkdir.

Salehin də hərbçi olmaq diləyi, arzusu həyata keçdi. Lakin öz arzusunu da, diləyini də, məhəbbətini də "Vətən sağ olsun!" - deyib, ona qurban etdi. Uğursuz məhəbbətə, nakam şəhidlərə, həyata keçməyən arzulara istedadlı, bənzərsiz şairimiz Rafiq Məmmədin yazdığı "Rekviyen"i neçə də həmahəng səslənir:

Dönük çıxdın, döndü rüzgar,
Suç oldu, gülüm, suç oldu.
Gör neçə bakir arzular,
Puç oldu, gülüm, puç oldu.

Girməyib nigah-kəbinə,
Uyuşmadıq el dəbinə.
Çalışdım hopam qəlbinə,
Gec oldu, gülüm, güc oldu.

Doğruldu əğyar hədəsi,
Çatdı ayrılıq vədəsi.
Rəzil həsrət abidəsi,
Ucaldı, gülüm, ucaldı.

Kar etməz, təsəlli, öyüd,
Hey ağla, könlünü ovut.
Xəyalda yapdığın o büt,
Uçuldu, gülüm, uçuldu.

Salehi Xüsusi Təyinatlı Qüvvələrdə, Universal Döyüş Federasiyasında hətta yüksək hərbi komandanlıqda da yaxşı tanıyır və hörmətlə anırlar.

Biləsuvar mərd ərənlər yurdu, Seyid Mübarizin məskənidir. Biləsuvar çox şəhid vermiş rayonlarımızdan biridir. Mübarizin udduğu havadan udan, içdiyi sudan içən oğullar təbii ki, Mübariz kimi mərd, vətənsevər olmalıdır. Dünya hərb tarixində analoqu olmayan 44 günlük müharibədə igidlərimiz bənzərsiz qəhrəmanlıq dastanı yazdılar. Digər qəbiristanlıqlarda olduğu kimi Nəsimi kəndində də Salehlə bərabər çoxlu şəhidlər uyuyur. Haqq savaşında şəhid olan bu igidlərimiz haqqında hələ neçə-neçə əsərlər yazılacaq, filmlər çəkiləcək, araşdırmalar aparılacaq...

Vətən torpağını əbədi məskən seçmiş, ölməz şəhidimiz, Murov fatehi Saleh Məcidzadənin doğulub boya-başa çatdığı evinə girişdə qəhrəmanımızın və Biləsuvar şəhidlərinin şəkilləri diqqət çəkir. Xüsusi ustalıq və zövqlə hazırlanmış şəkillər elə qəhrəmanın adına layiq bəzədilmişdir. İkinci mərtəbədə Salehin adına şəkillər, xüsusi guşədə isə Xüsusi Təyinatlı Qüvvələrin şəhidi, Murov fatehi, 44 günlük vətən müharibəsinin qəhrəmanı Saleh Məcidzadənin ölümündən sonra aldığı "Bayraq ordeni", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına", "Füzulinin azad olunmasına", "Kəlbəcərin azad olunmasına" və "Xocavəndin azad olunmasına" görə medalları və şəxsi əşyaları saxlanılan otağa həyəcansız baxmaq olmur. Burada hər şey, hətta divarlar da Salehdən danışır. Axı bura Salehin bəy otağı olmalı idi!

***Nazim QƏRİB,***
***yazıçı-publisist, AYB-nin üzvü,***
***"Həsən bəy Zərdabi" və***
***"Qızıl Qələm"***
***media mükafatçısı***